BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2014*

**UOT 94(479.24)**

# İXTİSASLI KADRLARIN HAZIRLANMASINDA BAKI DÖVLƏT UNİVERSİTETİNİN ROLU

**G.M.CƏFƏROVA**
***Bakı Dövlət Universiteti***
***asiya.afrika@gmail.com***

*Məqalə Azərbaycan Respublikasının ilk ali təhsil müəssisəsi olan Bakı Dövlət Universitetinə həsr olunmuşdur. Bakı Dövlət Universiteti 1919-cu ildə Azərbaycan Demokratik Respublikası dövründə yaradılmışdır. Hal-hazırda 16 fakültə,123 kafedra və 22009 nəfər kollektivi vardır.*

*Universitetdə 19000 tələbə, 3000 müəllim – onlardan 300 elmlər doktoru, 800 elmlər namizədi çalışır.*

**Açar sözlər:** universitet, təhsil, bakalavr, magistr, kadr

Bakı Dövlət Universiteti (BDU) hər zaman Azərbaycanda mütərəqqi fikrin, milli düşüncənin mərkəzi olmuşdur. Burada Azərbaycanın yüzlərlə tanınmış alimi, ziyalısı, görkəmli diplomatları təhsil almışlar. Müstəqil Azərbaycan Respublikasının aparıcı təhsil ocağı olan BDU ölkəmizdə elm və təhsil, maarif və mədəniyyət, sosial və iqtisadi həyatın müxtəlif sahələri üçün 100 mindən artıq yüksəkixtisaslı mütəxəssis yetişdirmiş, fəaliyyətə başladığı andan bu günə qədər şanlı yol keçərək dünyada tanınmış qabaqcıl universitetlərdən birinə çevrilmişdir.

Azərbaycanın müstəqillik yolu ilə ağrılı-əzablı irəliləyiş, Ermənistanın təcavüzü ilə bağlı başlanmış müharibənin doğurduğu fəlakətlər BDU-nun fəaliyyətinə təsirsiz qalmamışdır. BDU-nun bir sıra müəllim və tələbəsi, məzunu bu müharibənin iştirakçısı olmuşdur. Bütün çətinliklərə baxmayaraq, BDU mədəni-intellektual potensialını qoruyub saxlamaq və artırmaq, mütəxəssislər hazırlanmasının keyfiyyətini yaxşılaşdırmaq istiqamətində xeyli iş görmüşdür. Müstəqilliyin ilk illərində BDU-da 15 fakültə, 108 kafedra, o cümlədən 93 ixtisas kafedrası fəaliyyət göstərmiş (12, 2), yeni fakültələr yaranmışdır. 1991/92-ci dərs ilində sosial elmlər və psixologiya, beynəlxalq hüquq və beynəlxalq münasibətlər fakültələri, 1993-1994-cü dərs ilində isə ilahiyyat və ödənişli təhsil fakültələri fəaliyyətə başlamışdır ki, bu da yeni ixtisaslı kadrla-

rın hazırlanması sahəsində mühüm nailiyyətlərin əldə edilməsinə təkan vermişdir. Müstəqilliyin ilk illərində tələbə kontingenti artmış, müxtəlif ixtisaslar üzrə kadr hazırlığı genişlənmişdir. Artıq 1992-ci ildə elmi-tədqiqat işlərinin yerinə yetirilməsinin bütün formaları üzrə 4900 tələbə əhatə olunmuşdu (13, 26).

Bildiyimiz kimi, 1993-cü ildən etibarən ali məktəblərdə bakalavr və magistr pilləli təhsilə keçildi və 1993-1994-cü tədris ilindən etibarən BDU-nun bütün fakültələri öz işlərini bakalavr pilləsi üçün işlənib hazırlanmış yeni tədris planlarına uyğun qurmağa başladılar. Həm universitetdə, həm də fakültələrdə islahat-ekspert komissiyaları təhsilin və elmi tədqiqatların ən ciddi problemlərini hərtərəfli müzakirə edir, zəruri sənədlər hazırlayırdılar. Bakalavr və magistr pilləli təhsilə keçidlə bərabər, BDU-da müxtəlif ixtisaslar üzrə elmi kadrların hazırlanması işi də genişləndirildi və qısa müddət ərzində aspirantların sayı artırıldı. Əgər 1993-cü ildə aspiranturanı 25 nəfər bitirmişdisə, artıq 1994-cü ildə aspirantura şöbəsində 142 nəfər təhsil alırdı (7, 102).

Müstəqilliyin ilk illərindən başlayaraq BDU-nun müxtəlif fakültələrində tədris və elm sahəsində bir sıra yeni məqamların genişlənməsi özünü göstərirdi. Belə ki, yeni ixtisas kursları meydana gəlir, onların proqramları hazırlanır, tədris olunan kursların və elmi tədqiqatların mənbələri, empirik bazası yenilənir və zənginləşirdi. Nəşr işində yaranan çətinliklərə baxmayaraq, bu dövrdə müxtəlif ixtisaslar üzrə xeyli monoqrafiya, məqalə, dərslik, dərs vəsaiti, metodik vəsait, proqram çap olunaraq tələbələrin və müəllimlərin istifadəsinə verilirdi.

BDU-nun professor-müəllim heyəti universitetin, fakültələrin müxtəlif tədbirlərində, digər ali məktəblərdə, Milli Elmlər Akademiyasının müxtəlif institutlarında, bir sıra xarici ölkələrin elm mərkəzlərində keçirilən konfranslarda fəal iştirak edir, bəzi hallarda isə belə konfransların çağrılmasının təşəbbüskarları və təşkilatçıları olurlar.

Müstəqillik illərində tələbələr təhsilin, elmin, mədəniyyətin, siyasətin və iqtisadiyyatın, beynəlxalq münasibətlərin bir çox aktual mövzuları ətrafında qızğın diskussiyalar aparılır, bu diskussiyalara müxtəlif elm sahələrindən olan mütəxəssislər cəlb edilirdilər. Tələbə fəaliyyətinin yeni təşkilati formaları təşəkkül tapır və tədricən təkmilləşdirilirdi. BDU-nun tələbələri orta məktəblərlə birlikdə tez-tez maraqlı, yadda qalan görüşlər təşkil edirdilər ki, bu görüşlər, adətən əlamətdar tarixi hadisələrə, təhsilin müxtəlif problemlərinə aid olurdu. Fakültə məzunlarının işlədiyi sahələr olduqca müxtəlifdir: təhsil sistemi, elmi-tədqiqat institutları, nazirliklər, və komitələr, Prezdent Aparatı, arxivlər, muzeylər, kommersiya strukturları və s. Məzunların bir çoxu artıq tanınmış alim, ictimai xadim kimi şöhrət qazanmışlar.

BDU özünün beynəlxalq əlaqələrini məzmunca xeyli dolğunlaşdırmış və zənginləşdirmişdir. Universitetin müxtəlif fakültələri və kafedraları həm respublikadakı uyğun strukturlarla /məsələn, ali məktəblərin uyğun fakültələri, Azərbaycan Milli Elmlər Akademiyasının institutları, arxivlər, muzeylər və s./, həm də xarici ölkələrin ali təhsil müəssisələri, elmi mərkəzləri və birlikləri ilə sıx əlaqələr yaratmışlar. Qazi Universiteti /Ankara/, Egey Universiteti /İzmir/,

Yüksək Türk Tarix Konqresi, Türk Dünyası Araşdırmaları Vaqfı, Moskva Dövlət Universiteti, London Universiteti və s. ilə olan əlaqələrin məzmunca zənginləşməsinə xüsusi diqqət yetirilmişdir. Bir sıra xarici ölkə universitetlərinin, elmi mərkəz və birliklərin professorlarının BDU-da olmaları, elmi müzakirələrdə iştirak etmələri belə əlaqələrin perspektivliyini sübut edir.

13 mindən artıq gəncin təhsil aldığı BDU 40 ölkənin 143 Universitetini əhatə edən Boloniya prosesində fəal iştirak edir (1). 2006-2007-ci tədris ilindən başlayaraq Universitetin jurnalistika və biologiya, 2007-2008-ci tədris ilindən isə kimya, geologiya, filologiya və şərqşünaslıq fakültələrində eksperiment olaraq kredit sisteminə keçirilmişdir. Boloniya Bəyannaməsinə imza atan dövlətlərə Avropa Birliyi tərəfindən xüsusi qrantlar ayrılır və BDU da bu qrantlardan səmərəli şəkildə, Universitetdə ixtisaslı kadrların hazırlanması işində daha fəal iştirakını təmin etmək üçün istifadə edir (2).

BDU Yusif Məmmədəliyev, Zahid Xəlilov, Əşrəf Hüseynov, Mir Cəlal Paşayev, Abdulla Qarayev, Heydər Hüseynov, Şəfayət Mehdiyev, Mirəli Qaşqay kimi dünya elminə böyük töhfələr vermiş qüdrətli alimlər, böyük dühalar yetişmişdir. Bununla yanaşı, universitet təkcə respublikamız üçün deyil, dünyanın 51 dövləti üçün də 100 mindən çox yüksəkixtisaslı mütəxəssis hazırlamışdır.

Azərbaycan cəmiyyətinin ictimai-siyasi ruhunun sağlamlaşmasında BDU kollektivi çox böyük təsir gücünə malikdir. Bu işdə təhsil ocağında fəaliyyət göstərən dövlət idarəçilik məktəbinin rolunu xüsusi qiymətləndirmək lazımdır. Ayrı-ayrı ictimai-siyasi xadimlərin, nazir və ali dövlət srukturunda çalışan rəhbər şəxslərin bu ali məktəbdə oxuduqları məruzələr böyük əhəmiyyət kəsb edir.

Azərbaycan elminin beşiyi sayılan BDU öz intellektual potensialına və elmi uğurlarına görə dünya səviyyəsində respublikamızı layiqincə təmsil edir. BDU-nun rəsmi saytı (bsu.az) və poçt xidməti (mail.bsu.az ) yaradılmışdır (4, 18). Dünyanın aparıcı universitetləri ilə ikitərəfli əlaqələr qurulur. BDU beynəlxalq forumlarında əsas söz sahibidir və 100-dən artıq universiteti birləşdirən Qara dəniz Hövzəsi Ölkələri Universitetləri Assosiasiyasına rəhbərliyi də təhsil ocağımız edir. BDU-nun Amerika Birləşmiş Ştatlarının, Fransanın, İsveçrənin, Almaniyanın, Türkiyənin, Rusiyanın, İranın, Yaponiyanın və başqa ölkələrin universitetləri ilə çox sıx əlaqələri vardır. Həmin ölkələrin ən qabaqcıl universitetləri ilə tələbə mübadiləsi edilir.

BDU-da ixtisaslı kadrların hazırlanmasında xarici ölkələrin ali məktəbləri ilə qarşılıqlı əlaqələrin qurulmasının da çox mühüm əhəmaiyyəti vardır. Bu baxımdan BDU-nun beynəlxalq əlaqələri çoxşaxəlidir. Ruminyanın Konstansa şəhərindəki Ovidius, Rusiyanın Oradia, Afinanın Beynəlxalq və Kapodestrian, Avstriyanın Vyana, ABŞ-ın Girne, Okloxoma Sarki, Qafqaz, Təbriz Tərbiyət Müəllim Universitetləri, Fransanın Lil jurnalistika məktəbi ilə qarşılıqlı əməkdaşlığa dair əlaqələr qurulmuş (5, 185), Avstriyanın Zalsburq Universitetinin ekspertləri Bakı Dövlət Universitetinin qiymətləndirilməsi və Universitetin idarə edilməsində yeni texnologiyalarla əlaqədar dəyişikliklərin monitorin-

qini aparmış və bunu yüksək qiymətləndirmiş, BDU qurumunu Cənubi Qafqazda mərkəzi kimi fəaliyyət göstərməsini tövsiyə etmişlər (3). BDU ilə Astarxan Dövlət Universiteti, Atran Neft və Qaz İnstitutu, Qazaxıstan Dövlət Universiteti, Qorgan Universiteti, Gilan Universiteti və Mazandaran Universiteti arasında niyyət protokolları imzalanmış (8), Avstriyanın Vyana Universiteti ilə Bakı Dövlət Universiteti arasında bağlanmış müqaviləyə görə 2 nəfər III kurs tələbəsi təhsillərini Vyana Universitetində davam etdirmişlər (11, 139). 2004-cü ildə BDU-nun Elmi kitabxanasının qazandığı qranta əsasən, "Springer", "Blacwel" məlumat bazasından oxucuların istifadəsi üçün icazə alınmışdır. Həmin ildə BDU-nun rekroru, prof. A.Məhərrəmov BDU ilə Ruminyanın Konstansa Universiteti və Buxarest Lazer, Plazma və Radiasiya Fizikası üzrə Milli İnstitutu arasında Nano strukturlar və Nano texnologiyalar üzrə elmi araşdırmalarla bağlı əməkdaşlıq haqqında saziş bağlanmışdır və bu sazişin təkcə BDU-da deyil, bütövlükdə respublikamızda Nano texnologiyalar üzrə elmi araşdırmaların aparılmasının zənginləşdirilməsi istiqamətində çox mühüm əhəmiyyəti olmuşdur (6, 7-8). 2005-ci il mart ayıda Bakı Dövlət Universitetinin Tətbiqi Riyaziyyat İnstitutu ilə Fransanın Nantes Universitetinin Jean Leray Riyaziyyat laborotoriyası arasında əlaqələr qurulmuşdur (11), 2005-ci ilin dekabr ayında Kanadanın Vinnipeq universitetinin beynəlxalq və xarici əlaqələr üzrə prorektoru Alaa S. Abd-El-Aziz BDU-da olmuşdur. Keçirilən görüşlərin nəticəsi olaraq, BDU ilə Kanadanın Vinnipeq Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır (9). 2005-ci il aprel ayının 8-də BDU ilə Taras Şevçenko adına Kiyev Milli Universiteti arasında imzalanmış əməkdaşlıq müqaviləsinə uyğun olaraq BDU-nun coğrafiya fakültəsinin bir qrup tələbəsi Ukraynaya təcrübə keçməyə dəvət edilmişdir (15). 2006-cı ildə Beynəlxalq əlaqələr üzrə prorektor, prof. N.A.Paşayevanın təşəbbüsü və bilavasitə köməyi ilə BDU-da Videokonfrans zalı, Beynəlxalq əlaqələr üçün görüş otağı yaradılmışdır. İlk olaraq Fransanın qədim və nüfuzlu Qrenobl Universiteti ilə videoəlaqə yaradılmış, qarşılıqlı əlaqələr əsasında Şərqşünaslıq fakültəsində 6 nəfər, İlahiyyat fakültəsində isə 3 nəfər xarici ölkə vətəndaşı çalışmışdır (4, 325). Bu xarici əlaqələrin nəticəsi olaraq, universitetin bazası günü-gündən daha da möhkəmlənir.

Hazırda respublikanın ali, orta ixtisas, texniki peşə və orta məktəblərində çalışanların böyük əksəriyyətinin, respublikamızın müxtəlif səviyyəli idarəetmə orqanlarında işləyənlərin xeyli hissəsinin Bakı Dövlət Universitetinin məzunu olduğunu nəzərə alsaq, o zaman BDU-nun Azərbaycan xalqının həyatında rolu haqqında müəyyən təsəvvür yaranır. Fəaliyyətinin bütün dövrlərində Təhsil Nazirliyinin Tədris Metofdik Şuralarının üzvləri və sədrlərinin yarıdan çoxu BDU-nun kafedra müdirləri və professorları olmuşlar. BDU-nun alimlərinin monoqrafiyaları, məqalələri, dərslikləri, dərs vəsaitləri və metodik vəsaitləri respublikanın bütün təhsil müəssisələrində geniş istifadə olunur.

BDU-nun tədris və elm həyatında olduğu kimi, ideya-tərbiyə aləmində də mövcud reallıqları əsas tutan dəyişikliklər baş verir. Tələbə özünüidarə təşkilat-

ları, müxtəlif istiqamətli və çalarlı klublar, dərnəklər, təhsil prosesinin özündə tərbiyənin təşəkkül tapan yeni məqamları və s.- bütün bunlar gənclərin ayrı-ayrı qruplarının mənafelərini, əhval-ruhiyyələrini, rəngarəng tələbatlarını əks etdirir.

Bakı Dövlət Universiteti gənc nəslin təlim-tərbiyəsində, elmi dünyagörüşünün formalaşmasında, mütəxəssisi hazırlığı sahəsində digər təhsil ocaqlarına örnək olaraq qalır. Heydər Əliyevin böyük sevgi ilə Azərbaycan xalqının milli sərvəti adlandırdığı Bakı Dövlət Universiteti respublikada elmin, maarifin təşəkkülündə və sonrakı inkişafında misilsiz rol oynamışdır. 176 ixtisas və ixtisaslaşma üzrə yüksək səviyyəli mütəxəssislər hazırlayan 16 fakültənin 118 kafedrasında 22 akademik və müxbir üzv, 300 nəfərə yaxın professor, 800 nəfərdən artıq elmlər namizədi və dosent çalışır ki, onlardan 15 nəfəri Ali Qanunverici hakimiyyət orqanı olan Milli Məclisin deputatıdır. 50 nəfərə yaxın "Şöhrət" ordeninə və " Tərəqqi" medalına layiq görülmüşdür, 25 nəfəri əməkdar elm xadimidir.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Bakı Dövlət Universitetinin beynəlxalq nüfuzu artmış, dünya dövlətləri və xalqları ilə əlaqələri genişlənmişdir. Ölkəyə rəsmi səfərə gələn bir çox dövlət rəhbərləri, siyasət və mədəniyyət xadimlərinin universitetin fəxri doktoru adına layiq görülməsi onun böyük nüfuza malik olduğunu sübut edir, dünya şöhrətini daha da artırır.

### ƏDƏBİYYAT


1. "Azərbaycan" qəzeti. 2005, 5 oktyabr.
2. "Azərbaycan" qəzeti. 2008, 24 fevral.
3. "Azərbaycan müəllimi" qəzeti. 2003, 10-16 oktyabr.
4. Bakı Dövlət Universitetində 2006-cı ildə yerinə yetirilmiş Elmi-Tədqiqat İşlərinin Nəticələri haqqında Hesabat. Bakı, 2007, 399 s.
5. Bakı Dövlət Universitetində 2001-ci ildə görülmüş Elmi-Tədqiqat İşlərinin Nəticələri haqqında Hesabat. Bakı, 2002, 190 s.
6. Bakı Dövlət Universitetində 2004-ci ildə yerinə yetirilmiş Elmi-Tədqiqat İşlərinin Nəticələri haqqında Hesabat. Bakı, 2005, 238 s.
7. Bakı Dövlət Universitetində 1997-ci ildə görülmüş Elmi-Tədqiqat Işlərinin Nəticələri haqqında Hesabat. Bakı, 1998, 166 s.
8. "Bakı Universiteti" qəzeti. 2003, 21 noyabr.
9. "Bakı Universiteti" qəzeti. 2005, 16 dekabr.
10. "Bakı Universiteti" qəzeti. 2008, 17 mart.
11. "Bakı Universiteti" qəzeti. 2007, 30 noyabr.
12. 2003-cü ildə görülmüş Elmi-Tədqiqat İşlərinin Nəticələri haqqında Hesabat. Bakı, 2004, 181 s.
13. 1995-ci ildə görülmüş Elmi-Tədqiqat İşlərinin Nəticələri haqqında Hesabat. Bakı, 1996. 112 s.
14. 1992-ci ildə yerinə yetirilmiş elmi-tədqiqat işləri haqqında İnformasiya Hesabatı. Bakı, 1993. 92 s.
15. "Xalq" qəzeti. 2005, 9 aprel.

## РОЛЬ БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА В ПОДГОТОВКЕ КАДРОВЫХ СПЕЦИАЛИСТОВ

**Г.М.ДЖАФАРОВА**

**РЕЗЮМЕ**

Статья посвящается первому высшему учебному заведению Азербайджанской Республики – Бакинскому Государственному Университету. Бакинский Государственный Университет основан в 1919 г. при Азербайджанской Демократической Республике. В настоящее время имеется 16 факультетов, 123 кафедры и 22000 членов коллектива.

В университете обучается более 19000 студентов, количество преподавателей 3000, из них около 300 докторов науки, более 800 кандидатов наук.

**Ключевая слова:** университет, образование, бакалавр, магистр, кадр

## THE ROLE OF BAKU STATE UNIVERSITY IN TRAINING OF SPECIALISTS

**Q.M.JAFAROVA**

**SUMMARY**

The article is dedicated to the first higher educational establishment of the Azerbaijani Republic. Baku State University was founded in 1919 during the Azerbaijan Democratic Republic. Presently there are 16 faculties, 123 departments, 22000 members of the university.

The university enrolls 19000 students, 3000 teachers, including 300 doctors and more than 800 candidates of sciences.

**Key words:** university, educational, bachelor, master, cadre